Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

# İşğaldan azad bölgələrimiz milli kommunikasiya sisteminə tam inteqrasiya olunub...

**İkinci Qarabağ müharibəsində Azərbaycan xalqının böyük qələbəsi və bu tarixi zəfərin təntənəsi işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işləri və Qarabağın iqtisadi dirçəlişi ilə davam edir. Bu gün doğma Qarabağda yaşayış məskənlərimizi bir-birinə qovuşduran yeni yollar çəkilir, aeroportlar tikilir, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri reallaşdırılır.**



Həmin bölgələrimizdə elektrik yarımstansiyaları quraşdırılır, hər yer yenidən nura, işığa bürünür. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir infrastrukturun yaradılması, bütün sahələrdə bərpa-quruculuq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın təmin edilməsi əsas məqsədlərdəndir. Ermənilərin Qarabağda qanunsuz əməllərinin və özbaşınalıqlarının sonunun gəldiyini təsdiqləyəcək daha bir xəbər yayılıb.

**Azərbaycana aid olmayan istənilən şirkət tezliklə Qarabağı tərk edəcək**

Qarabağın alaq otuna çevrilən erməni birləşmələrinin qondarma dövlət elan etdiyi Azərbaycan torpaqlarında 2020-ci ildə 44 günlük müharibədən əvvəl telekommunikasiya xidmətləri eksklüziv olaraq yerli operator "Karabakh Telecom QSC" tərəfindən həyata keçirilirdi və Ermənistan operatorlarının abunəçiləri rouminqdən istifadə edirdilər. Hələ də məkrli niyyətlərindən və Azərbaycanın humanist yanaşmasından yararlanan ermənilər bununla bağlı kədərə boğulublar. Onlar hüznlə qeyd edirlər ki, hərbi əməliyyatlar nəticəsində "Karabakh Telecom" QSC-nin infrastrukturuna ciddi ziyan dəyib və humanitar böhran şəraitində mobil rabitə ilə təminat təcili həllini tələb edən aktual problemə çevrilib. Qarabağdakı qanunsuz birləşmələrdən ibarət qondarma "erməni hökuməti" bu kimi məlumatları yayaraq, əhalini ümidləndirməyə çalışsa da, gedən proseslər Azərbaycana aid olmayan istənilən şirkətin tezliklə Qarabağı tərk edəcəyinə işarə edir.

Son zamanlar bir sıra erməni saytları həmişə olduğu kimi Azərbaycanı ermənilərin hüquqlarını pozmaqda ittiham edir. İddialara görə, Azərbaycan xüsusi qurğular vasitəsi ilə Xankəndi və ətraf ərazilərdə yaşayan erməni əhalisinin mobil və internet rabitəsinə müdaxilə edir və bu isə şəbəkələrdə nasazlıqlara səbəb olur.

**Ordumuzun zəfərindən sonra orada bir çox məsələlər dəyişdi**

İKT üzrə ekspert Aqşin Əliyev qeyd edir ki, belə hallarda bir neçə məsələni nəzərə almaq lazımdır:

"Bildiyiniz kimi Qarabağın erməni işğalında olan hissəsi 2020-ci ilin noyabrına qədər münaqişə zonası idi. Bu səbəbdən də oradakı bütün fəaliyyətlər qeyri-qanuni hesab olunurdu.

Amma ordumuzun zəfərindən sonra orada bir çox məsələlər dəyişdi. Hesab edirəm ki, Qarabağda bir çox məsələlərin, o cümlədən infrastruktur məsələlərinin bəzilərinin həllini tapması üçün zamana ehtiyac var. Çünki orada yaşayan bir qrup erməni əhalisi var və onlar hazırda reabilitasiya, uyğunlaşma dövrü yaşayır. Təbii ki, bu da bütün proseslərə təsir edir. Bunlardan biri də insanların bu gün daha çox ehtiyac duyduğu internet, mobil rabitə və s. məsələlərdir. Erməni mətbuatı yazır ki, guya yerli əhali Azərbaycanın onların mobil və internet rabitəsinə mane olması ilə bağlı Rusiya sülhməramlılarına şikayət edib. Bu məsələni şərh etməzdən öncə onu deyim ki, müxtəlif dövrlərdə bütün ölkələr GSM operatorlarında yaranan nasazlığa görə, problem yaşayıb. Hətta Azərbaycanda da dəfələrlə belə hallar olub. Bu da təbii haldır. Çünki texnika elədir ki, bəzən onda hansısa yenilənmə yaxud nasazlıq olur və bu da müəyyən fasilələrə gətirib çıxarır.

Erməni əhalisinin yaşadığı bölgə Azərbaycan silahlı qüvvələrinin, Sülhməramlıların və Ermənistanın hərbi obyektlərinin yerləşdiyi bölgənin ortasındadır. Ola bilsin ki, orda olan gizli hərbi obyektlərin təhlükəsizliyi üçün müxtəlif rabitə siqnallarını bloklayıcı vasitələrdən istifadə edilir. Nəzərə almalıyıq ki, burada 3 müxtəlif tərəfin hərbi obyekti var və hər 3 tərəfin də gizli saxlamaq istədiyi hansısa koordinatların yayılmaması üçün belə bir vasitələrdən istifadə etmək imkanı mövcuddur. Belə olan halda həmin ərazidə GSM operatorların mobil şəbəkəsində çətinliyin yaranması normaldır. Həmçinin də operatorların nasazlıqları və ya fors-major halları nəzərə almalıyıq. Belə olanda isə çətinliklər daha da intensiv hal alır".

**Dünyadakı ən müasir standartların tətbiqi ilə bağlı göstərişlər verilib**

Ekspert hesab edir ki, tarixən riyakarlıqları ilə tanınan ermənilərin bu dəfə də eyni əməllərə əl atması mümkündür. Bu səbəbdən də kompleks araşdırmalar aparılmalıdır:

"Həmin məsələ ilə bağlı digər bir praktik nümunə ondan ibarətdir ki, ermənilər həmişəki kimi cığallıq edir. Belə ki, onlar Azərbaycanı təqsirləndirmək məqsədi ilə qəsdən şəbəkədə hansısa bloklamalar həyata keçirə bilərlər və əhalinin süni narazılığını ölkəmizin üstünə yönəltmək istəyərlər. Bütün bu məsələləri araşdırmaq üçün isə mütəxəssislər işləməlidir.

O ki qaldı "Karabakh Telecom"un Qarabağda fəaliyyətinə, təbii ki, bu qurumun Qarabağda fəaliyyəti qanusuzdur. Orada Azərbaycan qanunları əsasında fəaliyyət göstərən mobil operatoru işləyə bilər. Azərbaycanın hüququdur ki, beynəlxalq təşkilatlara müraciət edib onun işini məhdudlaşdırsın. Hesab edirəm ki, bu daha böyük bir xaosa yol açacaq. Belə olan halda orada yaşayan sivil insanların hüquqlarını əlindən almış oluruq. Ona görə də Azərbaycan bu mövqedə təmkinlidir və oradakı prosesləri reabilitasiya dövrünə buraxıb".

İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı dünyadakı ən yüksək standartlar tətbiq edilir. Məlum olduğu kimi, Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq müasirləşməni hədəfləyib. O cümlədən Vətən müharibəsində işğaldan azad olunan ərazilərimizin bərpası da müasir yanaşmalar əsasında həyata keçirilir. Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərdə salınacaq kəndlərdə və şəhərlərdə, eləcə də burada yaradılacaq təsərrüfatlarda, istehsal müəssisələrində dünyadakı ən müasir standartların tətbiqi ilə bağlı göstərişlərini verib. Bu baxımdan da, informasiya və kommunikasiya texnologiyalarının həmin regionda daha da inkişaf etdirilməsi ən başlıca hədəf olaraq qarşımızda durur.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**